# AZLİBNET

## informasiya-kommunikasiya texnologiyaları kitabxanalarda sürətlə tətbiq edilir

Ölkə Prezidenti İlham Əliyevin imzaladığı Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramının icrası istiqamətində C.Cabbarlı adına kitabxanada görülən işlərdən biri və ən mühümü AZLİBNET Milli İnformasiya Resurs Mərkəzidir.





● Solmaz OSMANOVA,
*C. Cabbarlı adına Respublika Gənclər Kitabxanasının sistem inzibatçısı*

AZLİBNET Milli İnformasiya Resurs Mərkəzinin yaradılması ideya kimi 2008-ci ildən mövcud olsa da, onun reallaşdırılması məhz 2013-cü ilə təsadüf etdi və Azərbaycan Respublikasında "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamdan irəli gələn vəzifənin ilk icraçı obyekti oldu.

Layihənin prioritet istiqamətlərindən biri kitabxanaların komplektləşdirilməsi və kataloqlaşdırılması kitabxanalarda elektron informasiya resurslarının yaradılması və onların istifadəçilərə təqdim olunması, eləcə də qlobal informasiya şəbəkələrində kitabxanaların korporativ işinin təşkili və Azərbaycan kitabxanalarının birgə Milli Kataloqlaşdırma Sistemini yaratmaqdan ibarətdir.

Başlıca vəzifə Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan respublika əhəmiyyətli böyük kitabxanalar, habelə şəhər (rayon) MKS-lərinin kataloqlaşdırma zamanı əlavə vaxt, zaman, vəsait itkisinin, habelə biblioqrafik yazıların tərtibində nöqsan və təkrarçılığın aradan qaldırılmasına nail olmaqdır. AZLİBNET Mərkəzinin hazırda həyata keçirdiyi ən vacib iş Azərbaycan kitabxanalarında birgə kataloqlaşdırma, kitabxanaların Milli Toplu Elektron Kataloq Sistemini yaratmaqdır.

Azərbaycanın Toplu Elektron Kataloqu kitabxanaların inkişafının strateji istiqaməti kimi böyük əhəmiyyətə malikdir. Onun yaradılması kitabxana fondlarının məzmunu haqqında informasiya almağa, ölkənin bütün ərazisində istifadəçilərə sənədlərin rasional çatdırılmasını təmin etməyə, komplektləşdirmə prosesinin koordinasiyasına, mərkəzləşdirilmiş kataloqlaşdırma prosesinin təşkilinə imkan verəcək.

Toplu Elektron Kataloq ölkə kitabxanalarının informasiya kooperasiyası üçün yeni standartların tətbiqi və onların dünya kitabxana ictimaiyyətinə inteqrasiyasında həlledici faktordur. Azərbaycanda ayrıca olaraq Mədəniyyət və Turizm Nazirliyinin kitabxana işi sektoru tabeçiliyində 12 mindən çox müxtəlif tipli kitabxananın daxil olduğu geniş kitabxana-informasiya şəbəkəsi mövcuddur.

Bu şəbəkəyə yalnız kütləvi kitabxanalar deyil, həm də elmi-texniki, uşaq, gənclər, musiqi məktəblərinin, muzey və digər mədəniyyət və tədris müəssisələrinin, eləcə də müxtəlif təşkilatların tabeliyində olan kitabxanalar daxildir. Onların çoxunda artıq elektron kataloq sistemi yaradılmışdır.

Bildiyimiz kimi, heç də bütün kitabxanalar təsnifləşdirmənin beynəlxalq qaydalarının son versiyasını alıb tətbiq etmək iqtidarında deyildir. Lakin müasir standartlara uyğun, respublikanın qabaqcıl kitabxanalarının tərtib etdiyi və mütəxəssis biblioqraf və kitabxanaçılarının redaktə etdiyi biblioqrafik yazıların yerləşdirildiyi toplu kataloq Azərbaycan kitabxanalarında nümunəvi kataloq yazılarının formalaşmasını təmin edəcəkdir.

Qeyd etmək yerinə düşər ki, istər Rusiya Federasiyası və istərsə də digər xarici ölkə kitabxanaçılığında toplu kataloqlar pullu sistemdə işləyir və həmin kataloqlardan istifadə edən kitabxanalar biblioqrafik yazıların yüklənməsi üçün müəyyən edilmiş məbləğdə maliyyə vəsaiti ödəməklə yanaşı, həmin mərkəzin üzvi olmaq şərtdir.

Eyni zamanda üzv olmaq isə illik üzvlülük haqqı ödəmək öhdəçiliyini şərtləndirir. Lakin Respublikada ilkin təcrübə olan və bu sahənin inkişafında inqilabi sıçrayış kimi qiymətləndirilən Toplu Elektron Kataloq Azərbaycan kitabxanaçılığının inkişafını dəstəkləyir və pulsuzdur.

Mərkəz və toplu kataloq haqqında güclü mütəxəssis rəyi formalaşmışdır. Layihənin reallaşdırıldığı 4 ildən artıq bir müddət ərzində sahənin problem vəzifələri tədqiq edildi, öyrənildi, beynəlxalq və yerli kitabxanaçılığın inkişaf istiqaməti və təcrübələri araşdırıldı.

Kitabxanaçılıq sahəsinin mütəxəssisləri ilə lokal verilənlər bazaları, testləşdirmələr, onların lokal bazalarda aylarla nəzərdən keçirilməsi, proqramlaşma, təsnifləşdirmə dillərinin formatları ilə müqayisəli təhlili ilə bağlı məsləhətləşmələr aparıldı. Nəticələrin alınması ayrı -ayrı proqram təminatından alınan biblioqrafik yazıların verilənlər bazalarının yaradılması və bu bazalarda yoxlama testləri aparıldı.

Bu müddət ərzində xüsusilə konvertasiya məsələləri ilə bağlı məsləhətləşmələr və testlər keçirildi. Belə ki, biblioqrafik yazıların təsnifat dili və formatı həmin formatların üst-üstə düşməsinin mümkünlüyü nəzəriyyə ilə təcürbənin əyani surətdə yoxlanılması və toplu kataloqda yazıların problemsiz yüklənməsi və import-eksport edilməsi proseslərinin tənzimlənməsi layihənin başa çatdırılmasını əngəlləsə də, son nəticə ürəkaçan oldu və nəhayət respublikamızda belə bir toplu kataloqun və həm də ilk təcrübə kimi məhz bizim kitabxanada yaradılması şərəfinə nail olduq.

Layihənin texnoloji tərəflərinə gəldikdə isə demək istəyirəm ki, bu texnologiyanın İRBİS-64 proqram təminatı daxilində yaradılması və müvəffəqiyyətlə işləməsi İRBİS-64 Pproqramı çərçivəsində bir yenilik və müvəffəqiyyətdir ki, gələcəkdə bunu Ebnit Assosiasiyasına onu İRBİS sistemində "yeni modul" müəllif hüququ şərtilə təqdim etmək fikrindəyik.

Respublika kitabxanalarında kitabxana biblioqrafiya proseslərinin avtomatlaşdırılması sahəsində artıq müxtəlif proqram təminatından istifadə olunmaqdadır.

İnamla demək olar ki, AZLİBNET Milli İnformasiya Resurs Mərkəzinin toplu kataloquna digər Aisnin biqlioqrafik yazılarını da problemsiz konvertasiya etmək mümkündür. Belə ki, ilk vaxtlar üçün toplu kataloqa 5 kitabxanadan alınmış biblioqrafik yazılar daxi edilmişdisə, indi artıq Azərbaycan Diplomatiya Akademiyasının Kitabxanasında tətbiq edilən Milenium AİS-nin elektron kataloqundan 10000 ingilisdilli biblioqrafik yazı konvertasiya edilərək toplu kataloqda yerləşdirilmişdir.

AZLİBNET Milli İnformasiya Resurs Mərkəzinin yaradılmasının prioritet istiqamətlərindən biri də kitabxanalarda elektron informasiya resurslarının yaradılması və onların istifadəçilərə təqdim olunması, eləcə də qlobal informasiya şəbəkələrində kitabxanaların korporativ işinin təşkilidir.

AZLİBNET-in yaradılması ilə Azərbaycan kitabxanalarının birgə Milli Kataloqlaşdırma Sisteminin əsası qoyuldu. Başlıca vəzifə Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan respublika əhəmiyyətli böyük kitabxanalar, habelə şəhər (rayon) MKS-nin elektron resurslarının vahid mərkəzdən idarə olunma-

sı, təhlükəsizliyinin təmin edilməsi, elektron resursların istifadəçilərə fasiləsiz və operativ olaraq xidmət etməsidirsə, digər vəzifəsi regionda kitabxanaçılıq siyasətinin informasiya, idarəetmə, informsiya təbliğatı sahəsində, cəmiyyətin informasiyalaşdırılması, qloballaşdırma şəraitində təşəbbüsü ələ almaqdır.

İndi Müstəqil Azərbaycan Respublikası Cənubi Qafqaz bölgəsində iri miqyaslı layihələrə ev sahibliyi etdiyi bir vaxtda Azərbaycan Kitabxanaları da dövlət siyasətinin bir qolu kimi bölgədə informasiya siyasətini həyata keçirən bir sahə kimi nəzərə çarpan qiymətli bir layihəni ərsəyə gətirmişdir.

Mərkəzin indilik bir verilənlər bazası formalaşdırılmışdır.

Artıq C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası AZLİBNET Milli İnformasiya Resurs Mərkəzinin toplu kataloqundan rəsmi olaraq istifadə etmək, oradan biblioqrafik yazıların axtarışı, seçilməsi, import, eksport, yüklənməsi metodlarının kitabxanaçılara öyrədilməsi üçün silsilə treninqlər keçirməyə başlamışdır.

İlkin mərhələdə bu treninqlərə region kitabxanaları əməkdaşlarının cəlb edilməsi planlaşdırılmışdır. Artıq birinci mərhələ üçün C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının AZLİBNET Milli İnformasiya Resurs Mərkəzində 23 region kitabxanasından 46 əməkdaş bir həftə ərzində toplu kataloqda iş, ədəbiyyat axtarışı, sorğunun müəyyən edilməsi, axtarış nəticələri, onların içərisindən müvafiq variantların seçilməsi və yüklənməsi məsələləri, İRBİS sisteminin inzibatçılığı, təsnifləşdirmə, fərqli kitabların, çoxcildli kitabların yeni standartlara uyğun düzgün işlənməsi məsələlərinə həsr edilmiş treninqin işində iştirak etmişlər.

Keçirilən və gələcəkdə reallaşdırılması nəzərdə tutulan treninqin əsas məqsədi Respublikada ilk dəfə yaradılmış və kitabxanaçıların işində biblioqrafik yazıların tərtibinə və mərkəzləşmiş kataloqlaşdırmanın həyata keçirilməsinə yardım edən bu layihə vasitəsilə respublika kitabxanalarının kataloqlarının nümunəvi kataloqa çevrilməsidir.

AZLİBNET Milli İnformasiya Resurs Mərkəzinin toplu kataloqundan Azərbaycan Respublikasının bütün kitabxanaları və eləcə də beynəlxalq aləmdə fəaliyyət göstərən bütün kitabxanalar istifadə edə bilər və edir.

Belə ki, toplu kataloqun verilənlər bazasına Respublikanın 6 qabaqcıl kitabxanasının Azərbaycan, ingilis, rus və türk dillərində olan kitabların 60 mindən artıq biblioqrafik yazısı toplanmışdır. Biblioqrafik yazılar bir neçə formatda tərtib olunmuşdur ki, bu da İRBİS-64 AİS-in daxili strukturuna əsaslanır.

Topluya daxil olan kitabxanaların sıralanması aşağıdakı şəkildədir:

- Prezident Kitabxanası - proqram təminatı İRBİS-64 - Rusiya;
- Azərbaycan Diplomatik Akademiyasının Elmi kitabxanası - proqram təminatı - Milenium ABŞ;
- C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası - proqram təminatı İRBİS-64 - Rusiya;
- Sumqayıt şəhər Mərkəzi Kitabxanası - proqram təminatı İRBİS-64 - Rusiya;
- F.Köçərli adına Respublika Uşaq Kitabxanası.

Toplu kataloqa axtarış İRBİS-64 sisteminin axtarış formasına uyğun olaraq qurulmuşdur. Toplu kataloqda axtarış, nəticə, tapılan sənədin sıqlalara uyğun olaraq müəyyən edilməsi, axtarılan ədəbiyyatın forması, uyğun formatın seçilməsi beynəlxalq standartlara tam uyğundur.

Rusiya Federasiyasının və digər xarici ölkələrin toplu kataloqlarından fərqlənmir. Biblioqrafik yazıları proqram təminatından asılı olmayaraq bütün kitabxanalar yükləyə bilər. Biblioqrafik yazılar 8 formatda yığılmışdır - İSO, MƏTN, UTF-8, Windows-1251, CP-866, İRBİS-64, RusMarc, UsMarc.

Toplu kataloqa digər proqram təminatlarının biblioqrafik yazılarının yuxarıda göstərilən formatlara uyğun olaraq konvertasiya edilməsində heç bir problem yoxdur. Beynəlxalq sertifikatlaşmadan keçən Z39.50 modulunda işləyən proqram təminatının formatları toplu kataloqun biblioqrafik yazıları ilə uyğunlaşır.

Azərbaycanda kitabxana biblioqrafiya proseslərinin avtomatlaşdırılmasının kökləri hələ keçən əsrin 80-cı illərindən qaynaqlansa da, sözün əsl mənasında bu işlər 2000-ci ilin əvvəllərindən daha geniş vüsət almış Azərbaycan kitabxanalarında Proqram təminatlarının tətbiqinə başlanılmışdır.

İlk dəfə olaraq Azərbaycan Respublikasının İşlər İdarəsinin Prezident Kitabxanasında Rusiyanın Ebnit Assosiasiyasının İRBİS-64 proqram təminatından istifadə etməklə mükəmməl elektron kataloq yaradılmışdır.

Əgər əvvəlki illəri kitabxanaların kompüterləşməsi mərhələsi adlandırsaq heç də səhv etmərik. Kitabxanaların kompüterləşməsi mərhələsini kitabxanalarda elektron kataloqların yaradılması əvəzlədi və bu sahədə Azərbaycan Respublikası Prezident Kitabxanasından sonra Mədəniyyət və Turizm Nazirliyinin çoxsaylı kitabxanalar şəbəkəsi proqram təminatlarının alınması və elektron kataloqların yaradılmasına başladı və bu ərəfədə demək olar ki, respublika şəhər və rayon kitabxanalarının 60 faizi proqram təminatı ilə təmin olundu.

Yaradılan elektron kataloqlar onların online istifadəsində tez bir zamanda çatışmazlıqları üzə çıxardı. Belə ki, elektron informasiya resurslarının yaradılması, istifadəsi informasiya mübadiləsi kataloqlaşdırma və komplektləşdirmə sahəsində koordinasiya mərkəzinin - yəni mərkəzləşmiş kataloqlaşdırma və mərkəzləşdirilmiş komplektləşdirmənin vacib olduğunu bir də vurğuladı. Bu zərurət AZLİBNET Milli İnformasiya Resurs Mərkəzinin yaradılması ilə nəticələndi.

Respublikamızda ilk təcrübə olan bu layihənin böyük iqtisadi və maliyyə üstünlükləri vardır. Belə ki, layihənin reallaşdırılması çox böyük qənaətə səbəb olmuşdur ki, bu da 100 minlərlə hesablana bilər. Belə ki, C.Cabbarlı adına Kitabxananın AZLİBNET Milli Resurs Mərkəzindən idarə olunan Web mərkəzi 45-dən yuxarı Region MKS-lərini, Bakı və Sumqayıt şəhərlərinin iri kitabxanalarının elektron kataloqunu (Web şl - yüzləri) birləşdirir.

Bu, o deməkdir ki, 30-dan yuxarı proqramçı ştatı, 30-dan yuxarı server kompüter, 30-dan yuxarı kitabxanaya verilən 150 MB internetə və bunları idarə edəcək işçinin əmək haqqına qənaət edilir.

AZLİBNET Milli İnformasiya Resurs Mərkəzinin toplu kataloqunun online istifadəyə verilməsi ilə Azərbaycan Respublikası kitabxanaçılığında mərkəzləşmiş kataloqlaşdırma tam həyata keçməyə başladı.

Toplu kataloqun yaradılması və istifadəyə verilməsi Respublikada kitabxana işinin inkişafına gözəl bir töhfə olmaqla yanaşı, biblioqrafik təsvirin dünya standartları səviyyəsinə çatmasına, maşınla oxuna bilən kataloqların və müasir kağız kataloqların ən nümunəvi formatda işlənməsinə birdəfəlik zəmin yaratdı.

Bu layihənin işlənməsi və müvəffəqiyyətlə həyata keçirilməsi həm ənənəvi, həm də müasir kitabxanaçılıqda kitabxanalarımızın inkişafına böyük təkan verəcəkdir. Belə ki, proqram təminatı tətbiq etməyən kitabxanalar belə bu layihədən bəhrələnə biləcəkdir. Toplu kataloqdan mətn formatında biblioqrafik yazını yükləyən hər bir kitabxana həmin yazıları kartoçka şəklində çap etməklə öz kataloqunu müasir standartlara uyğun düzə bilər.

AZLİBNET Milli İnformasiya Resurs Mərkəzinin serverində yerləşən kitabxanaların Web mərkəzi layihəsi İRBİS-64 sistemi fəaliyyətində bilavasitə sistem texnologiyası əsasında işlənən ilk proyektdir. İstər region kitabxanaları və istərsə də Bakı və Sumqayıt şəhər kitabxanalarının elektron kataloqlarının web şlyuzi bir domendə hər biri öz İP ünvanı vasitəsi ilə bir domendə birləşmişdir. Proyektin istifadəyə verilməsi ilə respublikada ilk dəfə olaraq web serverlərin bir mərkəzdə birləşdirilməklə fasiləsiz işi təmin edildi.

Rusiya Ebnit Assosiasiyası məhsulu kimi istər İRBİS-64, istər İRBİS-32 və İRBİS-128 sistem texnologiysı əsasında belə bir layihə birinci dəfə Azərbaycanda işlənir və İRBİS proqramı ilə işləyən, lakin məhdud internet imkanları olan sahəvi və digər kitabxanaların da elektron kataloqlarının mərkəzdə yerləşdirilməsinə imkan verir. Güclü serverlərdə mühafizə olunan sənədlər, elektron kataloqlar fasiləsiz olaraq fəaliyyət göstərir.

AZLİBNET Milli İnformasiya Resurs Mərkəzinin layihəsi kitabxana işi sahəsində iki mühüm vəzifəni həyata keçirmişdir:

- AZLİBNET Milli İnformasiya Resurs Mərkəzinin Toplu kataloqu;
- Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi MKS-nin Web Mərkəzi.

AZLİBNET Milli İnformasiya Resurs Mərkəzinin serverində Respublikanın şəhər və rayon kitabxanalarının web şlyüzlərinin birləşdirildiyi vahid Web mərkəz yaradılmışdır. Bu Web mərkəz də öz növbəsində Respublikanın iri şəhər kitabxanaları və region MKS-nin elektron kataloqlarının fasiləsiz işini təmin edir. Belə ki, hər hansı ən ucqar bir rayonun mərkəzi kitabxanası internet və enerji təchizatı kimi faktorlardan asılı olmayaraq fasiləsiz olaraq işləyir. İstifadəçilər günün istənilən saatlarında elektron kataloqu olan istənilən kitabxananın fondu ilə tanış ola, axtarış apara və kitab sifariş edə bilər.

AZLİBNET Milli İnformasiya-Resurs Mərkəzinin Web mərkəzi layihəsi 2009-cu ildən işlənməyə başlanmışdır. Üç il ərzində aparılan axtarışların effektiv nəticəsi olaraq 2012-ci ilin son aylarında qeyri-rəsmi olaraq istifadəyə verilmişdir. Qısa bir müddət ərzində layihə barədə İRBİS-64 AİS-nin texnologiyasına əsaslanan Web Mərkəz sistemində əlavə formatlar yazılmış və bu fayllarda Web irbisin tərkib hissəsi olaraq şlyüzlərin eyni bir domen altında sub domen kimi fəaliyyət göstərməsini dəstəkləmişdir.

Online istifadəyə buraxılan Web mərkəz, toplu kataloq layihəsinin iş prosesində Rusiya Federasiyası Ebnit Assosiasiyası, Dnepropetrovski Texnoloji Universitetinin proqramçıları, Ukrayna - İRBİS sistemi üzrə mərkəzin baş direktoru və Web İRBİS mütəxəssisləri və yenə də Rusiyanın kitabxana işi sahəsinin tanınmış mütəxəssisləri öz fikirlərini bildirmiş, geniş onlinə müzakirələri aparılmış, diskussiyalar keçirilmişdir.

Web mərkəzlə əlaqə informasiyanın web mərkəz - dən İP ünvanlar birləşdirilməsi texnologiyası mərkəzin proqramçıları tərəfindən işlənmişdir, həmçinin burada İRBİS-64 proqram təminatının 666-cı portundan istifadə edilmişdir. Hər bir MKS-in ayrıca saytı və İP ünvanı olsa da, Web İRBİS həmin saytda mərkəzin İP ünvanı ilə yayımlanır.

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında yaradılmış AZLİBNET Milli İnformasiya Resurs Mərkəzinin toplu kataloqunun və Web mərkəzinin təhlükəsizliyini təmin etmək məqsədilə həmin layihələr Beynəlxalq hostinq mərkəzində yerləşdirilmişdir.

**Hazırda respublika regionlarının MKS-ləri və Heydər Əliyev mərkəzlərinin elektron kataloqları bir-birinin ardınca AZLİBNET Web mərkəzində birləşməklə elektron kataloqlarının fasiləsiz işini təmin edir.**